29 mart-4 aprel
2022.- S.14.
Türküstan



**Gülçəhrə Taxirova**

*Buxara vilayəti, Şafirkan rayonu 13 saylı ixtisas dövlət orta məktəbinin ingilis dili müəllimi.*

## Dördlüklər

Sağlam olsa bədən, ruh olsa tətik,
İşin də məhsuldar, unüm olacaq.
İnsanlara etsən yaxşılıq əgər,
Ömrün də gözəl və uzun olacaq.

***

Qəlb gözün görürsə, şükür et,
Ürəğin vurursa, şükür et.
Yaşamaq da bir — mükafatdır,
Həyat ilham versə, şükür et.

***

Nəf gözləri aclara baxma,
Yalancı göz yaşlara baxma,
İçindəki buzları ərit,
Altındəki daşlara baxma.

***

Elm bəxtə nərdivan, dediyi düzdür,
Və ya uzaq karvan, dediyi düzdür,
Əllərindən tutsan, uğur səninki,
Qəlbdə qalmaz arman dediyi düzdür.

***

Təvazökarlıq kamillikdir. Təvazökar ol müdam,
Heç zaman dilindən də düşməsin əlik-salam,
Mən sağam deməyə haqqın var — bil ki,
Ürəkləri mehrinlə əgər əyləyəbilsən ram.

***

Uğursuz olursan, şikayət etmə,
Ruzi-nəsibindən heç uzaq getmə,
Ağlın dediyinə bir tabe kimi,
Ürəyini boşdan həbsə atma.

***

Əsgərlər var — çörəyimiz var hər an,
Əsgər var — yüksəklir şərəf ilə şan,
Əsgər var — ürəklər arzuya dolu,
Əsgər var — sağ olur əziz ruhu can.

***

Ümid zəfərlərə aparır, dostum,
Möhnətsiz ləzzət bu — nağıldır, dostum.
Nüsrət gülşənində yaşamaq olsan,
Böyük qəlb və kitab lazımdır, dostum.

***

Nalimaq — Əzəldən şübhələnməkdir,
Ən əvvəl özünü pisləşdirməkdir,
Nalimaq — həqiqi dostdan ayrılmaq,
Düşmənlər sayını çoğaltırmaqdır.

***

Vətənimə xidmət etmək istəyirəm,
Ömrümü məna ilə bağlamaq istəyirəm,
Əsl əşqi oxusam, həqiqi dərdlə,
Milyonlarla qəlbi üzmək istəyirəm

Tərcümə etdi: Rəhmət Babacan